**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№375/2** **23 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının “31 dekabr 2024-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 12.6-cı “Auditorlar Palatasının maliyyə hesabatlarının auditinin aparılması üçün auditorun seçilməsi” və 12.7-ci “Auditorlar Palatasının 2024-cü il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili” bəndlərinin icrasını təmin etmək məqsədilə Palatanın Maliyyə və texniki təminat idarəsi (B.Abbasov) tərəfindən hazırlanmış Auditorlar Palatasının 2024-cü il üzrə Maliyyə Hesabatlarının “BKR Consulting” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aparılmış auditinin nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının “31 dekabr 2024-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı” bəyənilsin (əlavə olunur).

2. Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, “BKR Consulting” Məhdud Məsuliyyətli Cəmiyyəti (E.Əliyev) tərəfindən Auditorlar Palatasının 2024-cü il üzrə hazırlanmış Maliyyə Hesabatlarının nəticəsi üzrə göstərilmiş tövsiyələrin reallaşdırılmasını təmin etsin.

3. Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki:

3.1. maliyyə vəsaitlərinin təyinatı üzrə xərclənməsinə, xərclərin müvafiq sənədlərlə təsdiq edilməsinə, maliyyə dayanıqlılığının təmin edilməsinə, gələcək maliyyə risklərinin aradan qaldırılmasına ciddi nəzarət etsin;

3.2. mühasibat uçotunda amortizasiya və təmir xərclərinin hesablanmasını və maliyyə hesabatlarında əks olunmasını İctimai Sektor üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (İSMHBS) və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (İSMUBS) əsasən mühasibat uçotunun aparılması qaydalarının tələblərinə uyğun olaraq təmin etsin;

3.3. bir ay müddətində Auditorlar Palatasına üzvlük haqqından yaranmış debitor borcların yığılması istiqamətində təkliflərini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsin;

3.4. bir ay müddətində Maliyyə Hesabatlarında əks etdirilmiş və ümidsiz hesab edilən debitor borcların silinməsinə dair təkliflərini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsin.

4. Palata sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və Auditorlar Palatasının “31 dekabr 2024-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı”nın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və ingilis dili variantının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini təmin etsin.

**Şuranın sədri** **Vahid Novruzov**